## *SƏN DEDİN DÜNYAYA KİMDİR QƏSBKAR*

*Sülh carçısı əziz Heydər Əliyevə ithaf*

Erməni fitnəsi,
Erməni şəri
Qan töküb, aldadan zaman bəşəri
Sən dedin dunyaya həqiqətləri:
"Pambıq"la baş kəsən erməniləri
Sən sülhə səslədin, eşitmədilər.
Haqq yola çağırdın, ar etmədilər –
Böhtandan, şərdən.
Etdikləri qanlı cinayətlərdən...

Ey ağlı, zəkası xalqıma vüqar!
Sən dedin dünyaya, kimdir qəsbkar.
Kim qan tökür,
Kimin tökülür qanı?
Kimdir talan edən Azərbaycanı.
Var hansı millətdə bu qədər köçkün,
Qaçqın azarı?
Qəbirstanlarında uşaq məzarı?

Bizim anaların gözündən axan
Göz yaşı deyildir,
Şəhid qanıdır.

Məharətə baxın:
Görün kim, kimi
Dünyaya qəsbkar kimi tanıdır.
Döyüş tarixlərində
Bu həqiqətdir:
Qəsbkar qazancda
Ölən millətdir.
Dunya qərq olmamış qan dənizində
Dedin: Qəsbkarın yolunu kəsin!
Tələsin, insanlar!
Sülhə tələsin!

Qoruyaq dünyanın ehtişamını,
Dünya alqışqlayır, ey sülh carçısı
Ölümsüz, qırğınsız sülh məramını.
Qoy versin yaradan sənin kamını.

**1998**

***Mirvarid Dilbazi***
***Seçilmiş əsərləri. – B. : Lider, 2004. – S.59-60.***